**Leyla Vidadi ASLAN**
Qərbi Kaspi Universiteti,
Hüquq Psixologiyası, Magistr, II kurs
E-mail:leyla.v.aslan@gmail.com

# QƏTLİN PSİXOLOJİ MƏSƏLƏLƏRİNİN TƏDQİQİ

**Xülasə**

Qətlin psixoloji tədqiqi, qətl cinayətinin baş vermə səbəblərini, cinayətkarın şəxsiyyətini, motivlərini və davranışlarını psixoloji aspektlərdən təhlil etməyə yönəlmiş bir sahədir. Bu tədqiqatda məqsəd, qətl cinayətinin yalnız hüquqi və fiziki təhlilindən daha geniş bir baxış açısı ilə, cinayətkarın daxili dünyasını və onun sosial, emosional və psixoloji vəziyyətini başa düşməkdir.

Qətlin psixoloji tədqiqi, cinayətkarın şəxsiyyət pozuntuları, psixopatologiya, emosional pozuntular, uşaqlıq travmaları və sosial mühitin təsiri kimi amilləri araşdırır. Psixoloji yanaşmalar, qətlin, cinayətkarın daxili konfliktləri, sosial təzyiqlər və motivasiya ilə bağlı olduğunu göstərir. Məsələn, psixopatların, empatiya və vicdan hissi olmadan cinayət törətməsi, ya da emosional olaraq pozulmuş insanların aqressiv davranışlar göstərməsi kimi hallara diqqət yetirilir.

Bu sahə həmçinin qətl törədən fərdlərin psixoloji profilini yaratmağa, onların motivlərini və davranışlarını anlamaya kömək edir, cinayətin qarşısının alınmasına dair daha effektiv yanaşmaların inkişafına imkan verir.

**Açar sözlər:** qətl, psixoloji analiz, cinayət psixologiyası, qətlin səbəbləri, qatilin psixologiyası

**UOT:** 159.9
**DOİ:** https://doi.org/ 10.54414/RKLJ8884

**Giriş**

Qətl - bir insanın digərini qəsdən öldürməsi aktıdır. Bu cinayət, həm hüquqi, həm də psixoloji baxımdan çox mürəkkəb və ciddi bir məsələdir. Qətl yalnız hüquq mühafizə orqanları üçün deyil, həm də psixoloqlar, sosioloqlar və digər mütəxəssislər üçün dərindən araşdırılması lazım olan bir mövzudur. Qətl hadisələri, insanların davranışlarını və düşüncə tərzini anlamağa kömək edən vacib psixoloji məlumatlar təqdim edir. Qətlin səbəbləri çox müxtəlif ola bilər, amma psixoloji aspektlər, bu cür cinayətlərin təhlilində əsas rol oynayır.

Qətlin psixoloji aspektləri, cinayətkarın düşüncə tərzinin, emosional vəziyyətinin və şəxsiyyətinin qətl əməlini necə təsir etdiyini anlamağa yönəlir. Bu aspektlər qətl hadisələrinin motivlərini, emosional və psixoloji vəziyyətləri, həmçinin cinayətkarın şəxsiyyətini öyrənmək məqsədini güdür. Bu cinayətin psixoloji təhlili, yalnız cinayətkarın şəxsiyyətini və motivlərini başa düşməkdən ibarət deyil, həm də bu cür cinayətlərin qarşısını almağa və psixoloji təsirlərini azaltmağa yönəlmiş vacib addımlardır. Qətlin psixoloji aspektləri, cinayətkarın emosional və düşüncə tərzinin, sosial mühitin və psixoloji vəziyyətinin necə birləşərək bu cür ağır cinayətə gətirib çıxardığını anlamağa kömək edir. [2, səh.37]

Qətl hadisələrinin bir çoxu, cinayətkarın emosional vəziyyətinin kəskin şəkildə pozulduğu, ciddi psixoloji gərginlik yaşadığı anlarda baş verir. Məsələn, çoxsaylı tədqiqatlar göstərir ki, qətl törədən şəxslərin böyük əksəriyyəti əvvəlki dövrlərdə güclü emosional təzyiqlərə məruz qalmışdır. Qısqanclıq, sevgi və ya ailədaxili münaqişələr kimi faktlar, cinayətkarı öz davranışlarını nəzarət altında saxlamaqda çətinlik çəkən bir vəziyyətə sala bilər. Məsələn, ABŞ-da 2016-cı ildə həyata keçirilən bir araşdırmada, qətl törədən insanların 42%-nin qətlin motivinin qısqanclıq və şəxsi münaqişələr olduğunu göstərmişdir. Bu, emosional vəziyyətin, xüsusən də kişilərdə, qətl

cinayətinə aparan əsas amillərdən biri olduğunu sübut edir.

Qətlin psixoloji təhlilində, cinayətkarın motivasiyası çox mühüm yer tutur. Qətl törədən şəxslərin əksəriyyəti, əvvəlcədən planlaşdırılmış və ya spontan olaraq bu cinayəti törədirlər. Spontan qətllər, adətən, emosional vəziyyətin və ya sosial vəziyyətin təsiri altında baş verir. Cinayətkarlar qəzəb, qorxu və ya qisas hissi ilə bu cinayəti törətməyə yönələ bilərlər. Bəzi hallarda, qətl sadəcə güc nümayişi və ya şəxsi üstünlük əldə etmək məqsədilə edilir. Məsələn, bir çox serial qatillər (psixopatlar) özlərini güclü hiss edirlər və digər insanları öldürərək öz güclərini nümayiş etdirirlər. Belə cinayətlərin statistikası, psixopatların çoxunun qətl törətməkdə daha meylli olduğunu göstərir. Bəzi tədqiqatlara görə, psixopatların törətdiyi qətllər, cəmiyyətdəki digər cinayətlərdən 3 qat daha yüksəkdir. [4, səh. 47]

Qətlin psixoloji aspektləri, yalnız cinayətkarın daxili dünyasını deyil, həm də cəmiyyətin sosial və iqtisadi şərtlərini, ailəvi təsirləri və emosional gərginliyi nəzərə alır. Qətl törədən şəxsin psixoloji vəziyyəti, sosial mühitin təsirləri və onun motivasiyası bir araya gələrək cinayətə səbəb olur. Bu psixoloji təhlil, cinayətlərin qarşısının alınmasında və cinayətkarların reabilitasiyasında vacib bir rol oynayır. Gələcəkdə qətl və digər cinayətlərin azaldılması üçün, həm psixoloji dəstək sistemlərinin gücləndirilməsi, həm də sosial və iqtisadi şəraitin yaxşılaşdırılması lazımdır. [1, səh. 114]

Psixologiyanın qətl hadisələrinə olan rolu yalnız cinayətkarın motivlərini anlamaqla məhdudlaşmır. O, həm də cinayətlərin psixoloji profilini müəyyən etməyə imkan verir. Bu profil cinayətkarın şəxsiyyət xüsusiyyətlərini, düşüncə tərzini və davranış modellərini təhlil etməyə yönəlir. Psixoloqlar, cinayətkarın həyatındakı psixoloji zədələnmələri və travmalarını da öyrənir, çünki çox vaxt uşaqlıqda və ya gənclikdə alınan travmalar və zorakılıq, insanın gələcəkdə aqressiv və cinayətkar davranışlar sərgiləməsinə səbəb ola bilər. Məsələn, tədqiqatlar göstərir ki, uşaqlıqda zorakılığa məruz qalan şəxslərin qətl törətmə ehtimalı üç dəfə daha yüksəkdir.

Cinayətin psixoloji profili, cinayətkarın şəxsiyyətinin, düşüncə tərzinin, davranışlarının və motivlərinin analizindən ibarətdir. Bu profil, cinayətkarın növünü, davranışını və cinayətə necə meylli olduğunu anlamağa kömək edir. Psixoloji profilin yaradılması, cinayətlərin baş verməsinin qarşısını almağa, cinayətkarları daha yaxşı başa düşməyə və təkrar cinayətlərin qarşısını almaq üçün tədbirlər görməyə imkan verir.

Qətl psixologiyasının sosial aspektləri, cəmiyyətin və sosial mühitin cinayətlərin baş verməsində necə təsir etdiyini başa düşməyə imkan verir. Cəmiyyətin strukturu, sosial təzyiqlər, iqtisadi çətinliklər, sosial izolyasiya və digər faktlar, qətl hadisələrinin ortaya çıxmasında mühüm rol oynayır. Qətl cinayətinin baş verməsinin qarşısını almaq üçün bu sosial aspektləri düzgün anlamaq və qiymətləndirmək vacibdir. [6, səh. 140]

Sosial təzyiq, iqtisadi çətinliklər və işsizlik qətl hadisələrinin artmasına səbəb ola bilər. İnsanlar, sosial və iqtisadi baxımdan sıxıntıya düşdükdə, onları təzyiq altında saxlayan cəmiyyət, bəzi hallarda cinayətə daha meylli ola bilər. Məsələn, 2020-ci ildə COVID-19 pandemiyası ilə əlaqədar işsizlik və sosial çətinliklərin artması, ABŞ-da qətl və digər cinayətlərin sayında nəzərəçarpan artıma səbəb olmuşdur. Tədqiqatlar göstərir ki, hər 1%-lik işsizlik artımı qətl hadisələrinin 0,4%-lik artımına yol açır. İqtisadi çətinliklər və işsizlik, şəxslərin psixoloji vəziyyətini pisləşdirə bilər və bu, cinayət törətmək üçün daha çox motiv yaradır.

Ailədəki zorakılıq və uşaqlıq dövründəki travmalar da qətl psixologiyasının sosial aspektlərində mühüm rol oynayır. Uşaqlıq dövründə zorakılığa məruz qalan şəxslər, böyüdükdən sonra aqressiv və cinayətkar davranışlar sərgiləmə ehtimalı yüksəkdir. Ailədəki zorakılıq, uşağın psixoloji inkişafına mənfi təsir edir və bu, gələcəkdə cinayətlərin baş verməsinə səbəb ola bilər. Məsələn, məşhur serial qatili Ted Bundy, uşaqlıqda emosional və fiziki zorakılığa məruz qaldığı üçün şəxsiyyətində pozulmalar yaranmış və bu da onun gələcəkdə qətl törətməsinə yol açmışdır. [4, səh. 41]

Daha geniş təsəvvür yaratmaq üçün Ted Bundy üzərindən həyat hekayəsini incələyək. Belə ki, silsilə cinayətlər törətmiş Ted Bundy 1974-1978-ci illərdə 30-dan çox qadını qətlə yetirmiş şəxs olub. Onun sadəcə qadın cinayətləri törətməsinə səbəb nə idi bəs? Birincisi, ortada natamam ailə faktoru var. Ted Bundy qeyri-qanuni uşaq olduğu üçün anası bunu sirr olaraq saxlamaq qərarına gəlir və özünü ona bacısı kimi təqdim edir. Ted isə illərlə özünü ana və ata sevgisindən məhrum hiss edərək, hətta anasını bacısı zənn edərək yaşayır. Ted Vaşinqton Universitetində təhsil aldığı dövrdə Stefani adlı qıza aşiq olur, onun könlünü almaq üçün bütün üsullardan istifadə edir. Çətin mübarizə ilə əldə etdiyi Stefani, Tedin hədsiz emosianal davranışlar göstərməsi səbəbi ilə münasibəti sonlandırmaq qərarı verir və onu tərk edir. Ted nə qədər çalışsa da, yenidən onu qazanmağa nail ola bilmir. Bu hadisə Bunnydə çox dərin sarsıntı yaradır, o qədər özünə qapanır ki, hətta Universitetdən belə imtina edir. Bu hadisə üzərinə daha ağır bir situasiya yaşanır. Ted Bundy doğum evindən bacısı zənn etdiyi şəxsin əslində onun anası olduğu məlumatını əldə edir. Bu xəbərlə yaşadığı həyatının başdan-başa yalan içində olduğu, böyük bir yalana məhkum olunduğunu dərk edir. Ağır depressiya yaşayan Ted bir anda bütün qadınlara nifrət edən, bütün qadınlardan həyatının qisasını almağı hədəfləyən birinə çevrilir. Bu şeytani hədəf onu bir növ yenidən həyata bağlayır. [2, səh. 72]

İnsanların psixologiyasına bələd olmaq üçün Vaşinqton Universitetində psixologiya fakültəsində təhsil almağa başlayır. Təhsilini bitirərək məzun olduqdan sonra həm partiyada işləyir, həm də özünü daha da inkişaf etdirmək üçün "Utah" Universitetində hüquq fakültəsinə başlayır. Artıq keçmiş özünəqapanıq, çəkingən Tedin yerini yepyeni özgüvənli, xarizmatik, alicənab Ted Bunny almışdı. San Fransiskoya etdiyi iş səfərlərinin birində keçmiş sevgilisi Stefani ilə yenidən qarşılaşmış olur. Qız Tedin təhsili və işlədiyi yerdən təsirlənərək artıq onun uğurlu biri olduğunu, Tedlə münasibətə davam etməyi düşünür. Ted Bunny isə ona evlənmə təklifi edir və iki gün sonra onu tərk edərək əlaqəsini tamamən kəsir. Özgüvənini daha da artıran, artıq istənilən qadını əldə edə biləcəyini anlayan Ted, bu hadisədən sonra düz 4 il Amerika Birləşmiş Ştatlarında fasiləsiz silsilə qətllər törədir.

Onu da nəzərə çatdıraq ki, Ted digər insanlardan, qatillərdən öz zəkası, məntiqi, kübarlığı, səliqə-səhmanı, təhsili və mədəniyyəti ilə çox fərqlənirdi. O qədər cazibədar və yaraşıqlı idi ki, ətrafındakı qadınları özünə heyran buraxırdı. İndi isə onun öldürdüyü qadınlara diqqət yetirək. Bu qadınların hər biri Tedin həmin o keçmiş sevgilisi, sonradan əlaqəsini kəsdiyi Stefaninin bənzərləri idi. Qara, ortadan ayrılmış saçları ilə Stefaniyə oxşar düz 30 qadını amansızca qətlə yetirmiş, hətta öldürdüyü qadınların cəsədlərinə makyaj edib paltarlar geyindirərək təcavüz etmişdi. Qadınların cəsədlərini hissələrə bölərək meşənin müxtəlif yerlərində basdırırdı. Polis isə bu vəhşicəsinə törədilmiş cinayətlərdə əsla bir iz tapa bilmirdi. Ted Bunny həm psixoloji, həm də hüquqi təhsili ilə çox ustalıqla cinayət izlərini gizlədir, hər dəfə fərqli kimliklərə bürünərək tamamən başqa insan rollarına girirdi. Üzündə, stilində müxtəlif dəyişikliklər edir, polis kimliyindən belə istifadə edərək qızları sorğuya çəkirdi. [8, səh. 25]

Uşaqlıqdan aldığı travmalar, yaşadığı dərin sarsıntılar, natamam ailədə böyümə faktoru, həm psixoloji, həm fiziki şiddət, onu sevgi hissi ilə tanış edən, çətin mübarizə ilə əldə etdiyi şəxs tərəfindən rədd edilməsi kimi hadisələr onda ciddi pozuntulara gətirib çıxarmışdır. Və diqqət etsək, ağır depressiya yaşayaraq həyata olan yaşam marağının ölməsi ərəfəsində onu yenidən sağ qalmaq mübarizəsinə sövq edən amil intiqam hissi idi. Bu hiss o qədər güclənir ki, özünü şeytani fikirlərlə ciddi surətdə "təkmilləşdirir" və daha sonra da qətl törətmədən rahatlığını tapa bilmir. Ted Bunny haqqında sənədli filmlər hazırlanmış, həyat hekayəsi məlumat alan hər kəsi təəccübləndirmişdi, çünki ölümünədək ağlasığmaz həyat yolu yaşayır.

Sosial izolyasiya və kənarlaşma da qətl hadisələrinin yaranmasında təsirli amillərdən biridir. İnsanlar, cəmiyyətdən təcrid olunmuş və ya sosial şəbəkələri zəif olan zaman, özlərini yalnız və gücsüz hiss edirlər. Bu, bəzən daha aqressiv davranışlara və cinayətə təhrikə səbəb ola bilər. Sosial əlaqələrin zəif olması və

cəmiyyətə aidiyyət hissinin olmaması, cinayətkarın cəmiyyətdən təcrid olunmasına və cinayətə meylli olmasına yol açır.

Cəmiyyətin hüquq sisteminə və cinayətə yanaşma tərzi də sosial aspektlərdə mühüm rol oynayır. Hüquq və ədalət sisteminin zəif olması, cinayətlərin baş verməsi ilə bağlı cəmiyyətin əhəmiyyətli dəyişikliklərə uğramasına səbəb ola bilər. Cəmiyyətdəki sosial bərabərsizliklər və hüquqi boşluqlar, insanların qanunlara qarşı etiraz etmələrinə və bəzən cinayət törətmələrinə yol açır. Cəmiyyətdə hüquq sisteminə olan etibarın azalması, cinayətlərin artmasına gətirib çıxara bilər.

Bundan əlavə, sosial media və mədəniyyətin də qətl hadisələrinin yaranmasında sosial aspektlərə təsiri vardır. Sosial mediada yayılan şiddət və aqressiv davranışların təbliği, cəmiyyətdə bu cür davranışların normal qəbul edilməsinə və cinayətlərə təhrik edilməsinə səbəb ola bilər. Mədəniyyətlərdə güc nümayişi və intiqam hissinin təbliği, bəzən qətl kimi cinayətlərin baş verməsinə yol açır. Məsələn, bəzi mədəniyyətlərdə intiqam almaq, cəmiyyətdə qəbul edilən və hətta təqdir edilən bir davranış kimi görülə bilər, bu da cinayətkar davranışları artırır.

Nəticə olaraq, qətl psixologiyasının sosial aspektləri cəmiyyətin sosial, iqtisadi və mədəni strukturlarının cinayətlərin yaranmasına təsirini izah edir. İqtisadi çətinliklər, ailəvi zorakılıq, sosial təzyiqlər və hüquq sisteminin zəifliyi kimi amillər, cinayətlərin baş verməsinə və qətl hadisələrinin artmasına səbəb ola bilər. Cəmiyyətin sosial və iqtisadi şəraitinin yaxşılaşdırılması, sosial əlaqələrin gücləndirilməsi və hüquq sisteminin təkmilləşdirilməsi, qətl hadisələrinin azaldılmasına və cinayətlərin qarşısının alınmasına kömək edəcəkdir. [5, səh.76]

Xarici alimlər qətlin psixoloji təhlilini bir çox fərqli aspektdən araşdırmışlar. Bu sahədə mühüm nəzəriyyələrdən birincisi, psixopatologiya nəzəriyyəsidir. Bu nəzəriyyəyə görə, qətl törədən şəxslər çox vaxt psixoloji və şəxsiyyət pozuntularından əziyyət çəkirlər. Psixopatlar və antisocial şəxsiyyət pozuntusu olan şəxslər, başqalarına qarşı empatiya hissini itirərək və heç bir vicdan əzabı çəkmədən cinayət törədə bilərlər. Məsələn, məşhur psixologiya və criminologiya mütəxəssisi Hervey Cleckley psixopatiyanın təhlilinə dair önəmli işlər görmüşdür. Cleckley, psixopatların xarakteristikalarını təhlil edərək, onların sosial normalara qarşı laqeyd olduqlarını, manipulyativ davranışlar sərgilədiklərini və şəxsiyyət pozuntuları göstərdiklərini vurğulamışdır.

John Douglas və Robert Ressler kimi FBI-nın cinayət profilləmə üzrə mütəxəssisləri, cinayətkarların psixoloji profillərinin yaradılması sahəsində mühüm işlər aparmışlar. Onlar, xüsusilə serial qatillərini təhlil edərək, cinayətlərin arxasında duran psixoloji motivləri anlamağa çalışmışlar. Onların yanaşmalarına görə, qətl törədən insanlar çox vaxt güc və nəzarət hissi axtarırlar və cinayətlərini bu məqsədlə törədirlər. Bununla yanaşı, onlar, qətl törətmə prosesinin müəyyən bir "ritual" və ya ehtiyacdan qaynaqlandığını irəli sürürlər.

Bununla yanaşı, Sigmund Freud və Carl Jung kimi psixoanalitik nəzəriyyəçilər də qətlin psixoloji təhlilində öz yanaşmalarını inkişaf etdirmişlər. Freud, qətl hadisələrini şəxsiyyətin dərin qatlarında gizlənmiş arzu və ehtiyacların təzahürü kimi şərh edirdi. O, aqressiv davranışların, xüsusən də qətlin, insanın id və superego arasındakı konfliktlərdən yaranan bir nəticə olduğunu irəli sürmüşdür. Jung isə insanın arxetiplərini və kollektiv şüuraltını nəzərə alaraq, qətl kimi cinayətlərin, insanların içindəki "qaranlıq tərəflərin" təsiri ilə törədildiyini bildirmişdir. [6, səh.122]

Qətlin psixoloji tədqiqi, həm xarici, həm də Azərbaycan alimləri tərəfindən geniş şəkildə araşdırılmış və müxtəlif yanaşmalar inkişaf etdirilmişdir. Xarici alimlər, psixopatologiya və şəxsiyyət pozuntularından tutmuş sosial təzyiqlərin və mədəniyyətin təsirinə qədər geniş bir çərçivədə qətlin psixoloji səbəblərini araşdırmışlar. Azərbaycan alimləri isə sosial, ailəvi və iqtisadi təsirləri önə çəkərək, cəmiyyətin psixoloji təsirini və qətlin yaranmasında sosial amillərin rolunu vurğulamışlar. Hər iki yanaşma, qətl cinayətinin çoxşaxəli bir məsələ olduğunu, yalnız fərdi deyil, həm də cəmiyyətin üzləşdiyi sosial və iqtisadi çətinliklərdən qaynaqlandığını göstərir.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Nəbiyev, Ə. Cinayət və psixologiya. Bakı: Şəfəq. 2010.
2. Hüseynov, R. Cinayətkar psixologiya: nəzəriyyə və təcrübə. Bakı: Elmi-Nəşr. 2015.
3. Quliyeva, T. Qətl və onun psixoloji aspektləri. Bakı: Azərnəşr. 2016.
4. Məmmədova, Z. Cinayət psixologiyasının əsasları. Bakı: Maarif. 2017.
5. Rzayev, T. Psixoloji pozuntular və cinayətkar davranış. Bakı: Gənclik. 2014.
6. Cleckley, H. The Mask of Sanity: An Attempt to Clarify Some Issues About the So-Called
7. Psychopathic Personality. St. Louis: Mosby, 1941.
8. Douglas, J., & Ressler, R. Criminal Profiling: An Introduction to Behavioral Evidence Analysis. 2nd ed. Boston: Pearson Education, 2006.
9. https://kayzen.az/blog/maraqli-faktlar/20452/yara%C5%9F%C4%B1ql%C4%B1,-xarizmal%C4%B1,-a%C4%9F%C4%B1ll%C4%B1-qatil-ted-bundy.html

**Leyla Vidadi ASLAN**
Western Caspian University, Legal Psychology, Master, II course
E-mail:leyla.v.aslan@gmail.com

## EXPLORİNG THE PSYCHOLOGİCAL ASPECTS OF MURDER

**Summary**

The psychological study of murder is a field that focuses on analyzing the causes of the crime of murder, the personality, motives and behavior of the criminal from psychological aspects. The aim of this research is to understand the inner world of the criminal and his social, emotional and psychological state from a broader perspective than just the legal and physical analysis of the crime of murder.

The psychological study of murder examines factors such as the personality disorders of the criminal, psychopathology, emotional disorders, childhood traumas and the influence of the social environment. Psychological approaches show that murder is related to the internal conflicts of the criminal, social pressures and motivation. For example, attention is paid to cases such as psychopaths committing crimes without empathy and a sense of conscience, or emotionally disturbed people showing aggressive behavior.

This field also helps to create a psychological profile of individuals who commit murder, understand their motives and behavior, and allows the development of more effective approaches to crime prevention.

**Key words:** murder, psychological analysis, criminal psychology, causes of murder, psychology of the murderer

**Лейла Видади АСЛАН**
Западно-Каспийский Университет,
Юридическая Психология, Магистр, II курс

E-mail:leyla.v.aslan@gmail.com

## ƏИЗУЧЕНИЕ ПСИХОЛОГИЧЕСКИХ АСПЕКТОВ УБИЙСТВА

**Резюме**

Психологическое исследование убийства - это область, ориентированная на анализ причин преступления убийства, личности, мотивов и поведения преступника с психологических аспектов. Целью данного исследования является понимание внутреннего мира преступника и

его социального, эмоционального и психологического состояния в более широкой перспективе, чем просто юридический и физический анализ преступления убийства.

Психологическое исследование убийств изучает такие факторы, как расстройства личности преступника, психопатология, эмоциональные расстройства, детские травмы и влияние социальной среды. Психологические подходы показывают, что убийство связано с внутренними конфликтами преступника, социальным давлением и мотивацией. Например, психопаты совершают преступления без сочувствия и совести, или эмоционально неуравновешенные люди демонстрируют агрессивное поведение.

Это поле также помогает составить психологический профиль лиц, совершивших убийства, понять их мотивы и поведение, что позволяет разработать более эффективные подходы к предотвращению преступлений.

**Ключевые слова:** убийство, психологический анализ, криминальная психология, причины убийства, психология убийцы

**Daxil olub:** 07.01.2025